

**Azərbaycan xalqı müstəqilliyini bərpa edəndən bəri öz erkən milli mədəniyyətinə qayıtmaq, dünyada itirdiyi nüfuzu bərpa etmək və ən əsası xarici ölkələrdə nümayiş etdirilən əslən Azərbaycan xalqına məxsus olan yüksək sənət nümunələrini düzgün ünvanlandırmaq istəyində olmuşdur. Azərbaycan mədəniyyətinin bir neçə minillik tarixi vardır və bu tarixi dövrdə Azərbaycan xalqının nail olduğu mənəvi-mədəni dəyərlər bu gün dünyanı heyrətləndirəcək qədər ali və möhtəşəmdir.**

# Muzeylər və dövlət siyasəti

Hər bir mədəniyyət haqqında olan bilik və təsəvvürlər bu və ya digər xalqın bilavasitə tarixi, bununla belə arxeologiyası, etnoqrafiyası, folkloru və filologiyası, məişət və təsərrüfatına istinad edir. Bu bilikləri bizlərə müxtəlif elmi-tədqiqat institutları, kitabxanalar, təsəvvürləri isə şübhəsiz ki, muzeylər aşılayır.

Muzeylər müasir dövrümüzün ən strateji obyektlərindən biridir. Xüsusən də qloballaşma dövründə bir çox inkişaf etmiş ölkələr imperialist siyasətləri ilə digər mədəni xalqları mənəvi cəhətdən istila etmələri baxımından muzeylərin mövcudluğu mühüm əhəmiyyət kəsb edir.

Qədim Azərbaycan şəhərləri, sənət nümunələri, təbiətin qoynunda məskən salmış qoruqlar, qoruq-muzeylər, xalçaçılıq ənənələri və əxlaqi-ideoloji təməl bizim xalqın ən əsas nemətidir. La-

kin dünyada elə xalqlar var ki, tarix onları bizə qonşu edib, onlar isə bizim maddi-mənəvi və mədəni dəyərlərimizə göz dikib, bir çoxunu adlarına çıxarmışlar.

Milli mətbəximizin, milli musiqimizin nümunələrini və bir çox tarixi abidələrimizi özünküləşdirən ermənilər, bu gün isə Azərbaycanın işğal olunmuş Füzuli rayonundakı dünyanın ən qədim arxeoloji tapıntılarından biri olan Azıx mağarasına yiyəlik edirlər.

Müasir Azərbaycan tədqiqatçıları və alimləri bununla mübarizə etməklə yanaşı bu günkü texnogen sivilizasiyanın sürətlə inkişafı zamanı və qloballaşma dövründə həmin nailiyyətlərin, dəyərlərin və nümunələrin ünvanlarını özümüzə qaytarmağı və Azərbaycan xalqının həqiqətən də qüdrətli və yüksək mədəniyyətli xalq olduğunu dünyaya çatdırmağı qarşılarına əsas vəzifə kimi qoymuşlar. Bu vəzifələrin yerinə yetirilməsində əsas vasitələrdən biri də ölkəmizdə mövcud olan muzeylərin fəaliyyət göstərməsidir.

Azərbaycanda muzeylərin fəaliyyəti haqqında bir çox tədqiqat işi aparılmış, kitablar yazılmışdır, dissertasiya işləri müdafiə olunmuşdur ki, bu da, ilk növbədə, onlara olan maraq və muzeylərin həm tarixi keçmişimizi işıqlandırmağımıza, həm də ki, gələcəyimizi müəyyən etməyimizə kömək göstərməsi ilə bağlıdır.

Sovet dövründə bir çox tədqiqatçı yekdilliklə Azərbaycan muzeyşünaslığının əsasının yalnız Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə qoyulduğunu qeyd edir və bunu elmdənkənar faktlarla sübut etməyə çalışırdı.

Lakin statistik məlumatlara əsasən Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda muzeylərin sayı lazımi qədər artmamışdı. Məhz ümummilli liderimiz H. Əliyevin Azərbaycana ötən əsrin 70-ci illərində rəhbərlik etdiyi dövrdə 1982-ci ilin statistikasına əsasən 83 muzey fəaliyyət göstərmişdir.

Keçən əsrin 90-cı illərin əvvəllərində Sovet İttifaqının dağılması və Azərbaycanın siyasi həyatına nüfuz edən qeyri-sabitlik və siyasi arenada olan çəkişmələr muzeylərimizdən də yan keçməmişdir. Muzeylərdə elmi-tədqiqat işləri dayanmış, eksponatlar baxımsız hala düşmüş, muzey və mədəni-maarif işinə meyl azalmışdır. Bununla bərabər, qeyri-rəsmi məlumatlara əsasən xeyli tarixi əhəmiyyətli eksponat və əlyazma Azərbaycandan çıxarılaraq xaricə aparılmışdır.

Əfsuslar olsun ki, tarixin müəyyən dövrlərində ictimai-siyasi böhranlar yaşayan Azərbaycan öz milli sərvətlərini itirməyə meylli olmuşdur.

Bu bizim tarixi faciəmizdir ki, Azərbaycan xalqının ən dəyərli əsərləri olan "Avesta" və "Kitabi-Dədə Qorqud" dastanının əlyazmaları və orijinala yaxın olan nüsxələri xaricdə, Drezden və Vatikan kitabxanalarında saxlanılır. Əfsuslar olsun ki, bu siyahı bununla bitmir. XVI əsrdə toxunmuş və o dövrdə dünyanın ən böyük "Şeyx Səfi" xalçasının 1893-cü ildə Londondakı Viktoriya və Albert muzeyinə satılması faktı da danılmazdır.

Müstəqilliyimiz bərpa edildikdən sonra, xüsusən də H. Əliyevin hakimiyyətə qayıdışı ilə digər sahələr kimi milli muzey işi sahəsi də sürətlə inkişaf etməyə başlamışdır. Bu H. Əliyevin ilk hakimiyyəti dövründə əldə etdiyi təcrübənin inikası idi.

1970-ci ildən başlayaraq respublikamızda müxtəlif profilli (tarix, təbiyyat, incəsənət, ədəbiyyat, texniki, təsərrüfat) muzeylərin yaradılması, fəaliyyət göstərməsi, muzeylərimizin zənginləşməsi, eksponatların təsvir olunması və siyahıya alınması, alimlərin kütləvi şəkildə muzey işinə, muzeylərin probleminə diqqətin artırılması müstəqillik illərimizdə alim və gənc tədqiqatçılara canlı metodiki vəsait, müəllimlərə isə uşaqların, yeniyetmələrin və xüsusilə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün vacib obyektlərdən biri olmuşdur.

1980-ci ildə məhz H. Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikamızda muzey işinə aid xüsusi qərar qəbul edilmişdir. Bu isə öz növbəsində muzey şəbəkəsinin inkişafına təkan vermişdir. Həmin qərara uyğun olaraq respublikamızda Mədəniyyət Nazirliyinin mərkəzi aparatında Muzeylər İdarəsi yaradılmış, Muzey işi üzrə Respublika Elmi-Metodiki Mərkəzi, Muzey Ekspozisiyalarının Bədii Tərtibat Emalatxanası, Muzey Sərvətləri və Xatirə Əşyalarının Bərpa Mərkəzi təşkil olunmuşdur. Respublikamızın şəhərlərində və rayon mərkəzlərində tarix diyarşünaslıq muzeylərinin yaradılması da bu qərarda öz əksini tapmışdır.

Yaranmış sosial-iqtisadi və siyasi stabillik şəraiti alim və tədqiqatçıları yeni tədqiqatlara sövq edirdi.

Belə ki, Azərbaycanda Sovet hakimiyyəti qurulmamışdan öncə muzeylərin olmaması haqqında ötən əsrin ortalarında mövcud olmuş fərziyyələrə yenidən baxılmış, tədqiqatlar zamanı hələ XIX əsrin sonlarında dahi Azərbaycan yazıçısı və publisisti Cəlil Məmmədquluzadənin işlədiyi Naxçıvanın Nehrəm kəndində muzey yaratması barədə olan faktlar aşkar edilmişdir. Bundan başqa XIX əsrin əvvəllərində Bakıda xalq məktəbləri müdiriyyəti nəzdində Pedaqoji Muzey fəaliyyət göstərmişdir. Muzeylərdən əsasən tədris prosesində istifadə edilmişdir.

Dövlətin muzeylərə qayğısının bariz nümunəsi olaraq "Muzeylər haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 mart 2000-ci il tarixli Qanununu göstərmək olar. 5 fəsilli Qanunda muzeylər, muzey fondu, eksponat və kolleksiyalar, muzey fəaliyyəti, muzeylərin maliyyələşdirilməsi və zənginləşdirilməsi, işçilərin sosial müdafiəsi haqqında müddəalar əks etdirilmişdir.

Azərbaycan Respublikasının Qanununa, dövlət siyasətinə və xalqımızın milli maraqlarına əsasən muzeylərin yaradılması və məqsədi aşağıdakılardır:

"Azərbaycan Respublikasında muzeylər mədəniyyət, elmi-tədqiqat, maarifləndirmək funksiyalarını yerinə yetirən müəssisə forması kimi "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada yaranır. Azərbaycan Respublikasında muzeylər:

- muzey əşyalarının və kolleksiyalarının aşkar edilməsi, toplanması, qorunması, öyrənilməsi və tədqiqi;
- Azərbaycan xalqının milli sərvətləri, tarixi və görkəmli şəxsiyyətləri ilə geniş xalq kütlələrini tanış etmək, ayrı-ayrı vətəndaşları həmin sərvətlərin toplanmasına və öyrənilməsinə cəlb etmək;
- muzey əşyalarının və kolleksiyalarının nümayiş etdirilməsi və təhsil fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə yaradır. ("Muzeylər haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 mart 2000-ci il tarixli Qanunu, II fəsil, maddə 4).

Bundan başqa, Azərbaycanda milli muzey işinə xarici təcrübənin tətbiq edilməsi də dövlətin muzey və mədəni abidələrin mühafizəsi istiqamətində atdığı mühüm addımlardan biridir.

Prezident cənab İlham Əliyevin 2005-ci ilin mart ayında xüsusi sərəncamı ilə İçərişəhər qoruğuna verilən yeni status açıq havada yerləşən və Azərbaycan tarixinin bir neçə qatını əhatə edən abidələrini məmur laqeydliyindən xilas etmişdir.

Öz mahiyyətinə görə heç də dünyanın digər mədəni irsə malik olan xalqlara məxsus olan abidələrindən geri qalmayan İçərişəhər Semiramidanın Asma Bağları, Efesli Artemidanın Məbədi, Misir Ehramları və dünyanın digər möcüzələri ilə, hətta Britaniyanın Stounxenc abidəsi ilə bir sırada dayanır.

Çünki İçərişəhərin ayrı-ayrı hissələri, xüsusilə "Qız qalası" adı ilə tanınmış zərdüştlərin müqəddəs məbədi olan "Sükut qalası" miladdan əvvəl IX əsrdə ucaldılmış və yuxarıda adları çəkilən abidələrin müasiri olmuşdur. İçərişəhərin mahiyyəti həm də ondadır ki, o özündə müxtəlif dövr tikililəri birləşdirir. Qədim dövrə aid və orta əsrlərdə rekonstruksiya edilmiş "Qız qalası", orta əsrlərə aid Şirvanşahlar sarayı və Karvansara, XVIII-XIX əsrlərə aid Bəy məscidi və s. tikililər buna canlı sübutdur.

Hal-hazırda Bakıda 30 yaxın muzey fəaliyyət göstərir. Onlardan strateji əhəmiyyət kəsb edən ilk növbədə Azərbaycan Tarixi muzeyi, R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyi, Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyi, L. Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti muzeyinin adlarını çəkmək olar.

Bu və digər muzeylər elmi-tədqiqi-maarifçi (Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyi, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsil muzeyi), elmi-tədqiqat institutlarının nəznində tədqiqat (Azərbaycan Tarixi muzeyi), həmçinin tədris (əsasən məktəb və universitetlərdə təşkil olunmuş muzeylər) tipli muzeylər kimi fəaliyyət göstərir. Profillərinə görə muzeylər tarix və tarix-diyarşünaslıq (Azərbaycan Tarixi muzeyi, Din Tarixi muzeyi, Azərbaycan Respublikası Prokurorluğunun Tarix muzeyi), təbii elmlər (Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Səhiyyə muzeyi), bədii və incəsənət (R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyi, Musiqi Mədəniyyəti muzeyi, L.Kərimov adına Azərbaycan

Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr muzeyi), ədəbiyyat (Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyi, Miniatür Kitab muzeyi), hərbi-vətənpərvərlik (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərb Tarixi muzeyi, Azərbaycan İstiqlal muzeyi, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin muzeyi), texniki, təsərrüfat (Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kənd Təsərrüfatı muzeyi), təbiyyat (H. Zərdabi adına Təbiət Tarixi muzeyi) yönümlü olur. Bundan başqa Azərbaycanda (Niyazi, V.Mustafazadə, Q.Pirimov, Vaqif və Vidadi, N.Gəncəvi,C. Məmmədquluzadə, Rostropoviçlər) memorial (xatirə) və (Ü.Hacıbəyov, S.Vurğun, M.S.Ordubadi, A.Şaiq, H.Cavid, Bülbül) ev muzeyləri də mövcuddur.

Ələxsus bu gün Azərbaycanın mədəniyyət abidələri qonşu xalqların təcavüzünə məruz qaldığı bir dövrdə muzeylərimizin üzərinə böyük bir məsuliyyət düşür. Buna görə prezident mütəmadi olaraq muzeylərlə bağlı fərmanlar imzalayır və onların icrasına ciddi nəzarət edir.

Dövlət tərəfindən muzeylərə hüquqların verilməsi haqqında Qanunun 12-ci maddəsində müxtəlif hüquqlar öz əksini tapmışdır ki, bu da onların ilk növbədə inkişafı və təkmilləşdirilməsi yolunda vacib amillərdən biridir.

**Bu gün bir neçə muzeydə (Azərbaycan Tarixi muzeyi və Nizami Gəncəvi adına Ədəbiyyat muzeyi) əsaslı təmir işləri gedir. Buraya yerli mütəxəssislərdən başqa xarici mütəxəssislər də dəvət edilib. Həmin təmir işlərinin məqsədi muzeylərin yerləşdiyi binaların yararsız hala düşməsinə səbəb olan texniki və təsərrüfat problemlərini aradan qaldırmaq, binaları orijinal vəziyyətinə qaytarmaq və bütün bu işləri Avropa və Şərq ənənələrinə müvafiq olaraq başa çatdırmaqdır.**

• **Rüfət ƏLƏKBƏROV,**
***Mədəniyyətşünaslıq üzrə***
***Elmi-metodiki mərkəzin***
***Maddi-mədəni irs bölməsinin müdiri***

## Ədəbiyyat

1. Azərbaycan Dövlət İncəsənət Muzeyi, Bakı-1959.
2. Azərbaycan Tarix Muzeyi, Bakı-1973.
3. Əhmədova A. T. Azərbaycan muzeylərində ekspozisiya təşkil edilməsinin estetik prinsipləri, Namizədlik dissertasiyasının avtoreferatı, Bakı-2002.
4. Əsrlərdən yadigar, Bakı-2004.
5. Ağayev R. Muzeyşünaslıq, Bakı-2002.
6. Azərbaycan Sovet Ensiklopediyası, Bakı-1983, V və VII cildlər.
7. Əmirxanov S. Muzey və məktəbli dünyagörüşü, Bakı-2001.
8. "Dirçəliş - XXI əsr", sentyabr 1999.
9. "Günay" qəzeti, 29 mart 2003.
10. "Azərbaycan" qəzeti, 24 aprel 1998.
11. "Azərbaycan" qəzeti, 28 fevral 1998.
12. Большая Российская Энциклопедия, Москва-1996.
13. Большая Российская Энциклопедия, М. 2000.
14. Государственный Музей Азербайджанского Ковра и Народно-прикладного искусства, Баку-1977.
15. <http://www.artandculture.com>
16. http://www.azerifolk.com